# Azərbaycan Prezidenti İlham Əliyevin Polşa Prezidenti Andjey Duda ilə görüşü




İyulun 8-də Varşavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşü olub.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin səviyyəsindən məmnunluq ifadə edildi. Azərbaycan ilə Polşa arasında ötən dövrdə əməkdaşlığın inkişafında qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu. Müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadiyyat, enerji, təhlükəsizlik, nəqliyyat və digər sahələrdə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Azərbaycanın NATO və Avropa İttifaqı ilə əməkdaşlığı, Əfqanıstana müxtəlif sahələrdə Azərbaycanın dəstəyi və bir sıra digər məsələlər müzakirə olundu.

**AZƏRTAC**